# AZƏRBAYCAN RESPUBLİKASININ HESABLAMA PALATASI

# 2024-cü ilin yanvar-iyun ayları üzrə icra edilmiş Naxçıvan Muxtar Respublikasının büdcəsinin parametrlərinin təhlili barədə məlumat

Naxçıvan - 2024

**MÜNDƏRİCAT** 2

Ümumi məlumatlar 4

**I BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BÜDCƏSİNİN İCRA EDİLDİYİ MAKROİQTİSADİ MÜHİTİN TƏHLİLİ** 5

1.1. Naxçıvan Muxtar Respublikasının büdcəsinin icrasına təsir edən əsas meyillər 5

**II BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASI GƏLİRLƏRİNİN İCRA VƏZİYYƏTİNİN TƏHLİLİ** 6

2.1. Gəlirlərin mənbələr üzrə icra vəziyyətinin və inzibatçılığın təhlili 6

*Dövlət Vergi Xidməti xətti ilə daxilolmaların təhlili* 9

*Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsi xətti ilə daxilolmaların təhlili* 11

*Büdcədənkənar gəlirlərin təhlili* 12

*Sair daxilolmalar* 14

2.2. Məqsədli büdcə fondlarının daxilolmalarının təhlili 14

2.3. Muxtar Respublika gəlirlərinin üzləşdirilməsi 15

**III BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASI XƏRCLƏRİNİN İCRA VƏZİYYƏTİNİN TƏHLİLİ** 16

3.1. Funksional təsnifat üzrə xərclərin icra vəziyyəti 16

*3.1.1 Ehtiyat Fondlarının icrası* 17

*3.1.2 Dövlət əsaslı vəsait qoyuluşunun icrası* 17

3.2. İqtisadi təsnifat üzrə xərclərin icra vəziyyəti 18

3.3. İnzibati təsnifat üzrə xərclərin icra vəziyyəti 19

*3.3.1 Büdcə təşkilatlarının büdcədənkənar xərclərinin təhlili* 22

**IV BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASI BÜDCƏSİNİN VAXTINDA İCRASI VƏ XƏZİNƏ HESABININ MÜVAFİQ QALIĞININ HƏRƏKƏTİNİN TƏHLİLİ** 24

4.1. Naxçıvan Muxtar Respublikasının büdcə vəsaitlərinin vaxtında icrasının təhlili 24

4.2. Xəzinə hesabının müvafiq qalığının hərəkətinin təhlili 25

## ABREVİATUR və AKRONİMLƏR

| | |
|---|---|
| **AAO** | Ali Audit Orqanı |
| **DGK** | Dövlət Gömrük Komitəsi |
| **DVX** | Dövlət Vergi Xidməti |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **ƏDV** | Əlavə dəyər vergisi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **INTOSAI** | Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatı (The International Organization of Supreme Audit Institutions) |
| **VBT** | Vahid büdcə təsnifatı |

# ÜMUMİ MƏLUMATLAR

"2024-cü ilin yanvar-iyun ayları üzrə icra edilmiş Naxçıvan Muxtar Respublikasının büdcəsinin parametrlərinin təhlili barədə məlumat" "Hesablama Palatası haqqında" və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası qanunlarına uyğun olaraq hazırlanmışdır.

Məlumatın tərtib olunmasında "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 22 dekabr tarixli 32-VI QN nömrəli Qanunundan, eyni zamanda "Büdcə zərfi"nə daxil olan materiallardan, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 may tarixli 72 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət qurumlarına təqdim etdiyi hesabatların formaları və onların təqdim edilməsi Qaydası"na uyğun təqdim olunan hesabat və məlumatlardan, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatlarından, Hesablama Palatası tərəfindən həyata keçirilən kənar dövlət maliyyə nəzarəti tədbirlərinin və təhlillərin nəticələrindən istifadə edilmişdir.

Məlumatın hazırlanması zamanı INTOSAI P1 – Lima Bəyannaməsinin (Auditin Təməl Prinsipləri Bəyannaməsi) 2-ci maddəsinin (sonrakı (post) audit ) tələbləri nəzərə alınmışdır. Belə ki, sonrakı audit ilkin auditin keçirilib-keçirilməməsindən asılı olmayaraq, ali audit orqanının mütləq vəzifəsidir.

*Məlumat Naxçıvan Muxtar Respublikasının büdcəsinin icrası barədə məlumatların təsdiq edilmiş göstəricilərə, icra edilmiş gəlirlər, xərclər, dotasiyanın düzgünlüyü və tamlığı barədə kənar dövlət maliyyə nəzarəti orqanının qiymətləndirici mövqeyini məhdud əminliklə ifadə edir.*

Məlumatda 2024-cü ilin ilk yarımili üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin icrası ilə birgə təqdim edilmiş məlumatlarda əks etdirilmiş proqnoz göstəricilərinə əsaslanılmışdır.

Məlumatın hazırlanması zamanı yuxarıda qeyd edilmiş mənbələr üzrə məlumatlardan istifadə edilməklə statistik təhlil metodları, o cümlədən müqayisəli təhlil, meyillərin təhlili, retrospektiv yanaşma, kontent təhlili və s. tətbiq edilmiş, nəticələrin qrafik və cədvəl şəklində təsvirinə üstünlük verilmişdir.

# I BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BÜDCƏSİNİN İCRA EDİLDİYİ MAKROİQTİSADİ MÜHİTİN TƏHLİLİ

## 1.1. Naxçıvan Muxtar Respublikasının büdcəsinin icrasına təsir edən əsas meyillər

**1.1.1.Hesabat dövründə əsas makroiqtisadi göstəricidə artım qeydə alınmış, iqtisadiyyatın əksər sahələrində artım qeydə alısa da, bəzi sahələrdə azalma izlənmiş, əvvəlki ilin müvafiq dövrü üzrə məlumatların ətraflı təqdim olunmaması təhlillərin aparılmasına təsir göstərmişdir.**

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilmiş hesabata əsasən, 2024-cü ilin yanvar-iyun ayları üzrə Naxçıvan Muxtar Respublikasında 674,4 mln. manat həcmində ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,7% çoxdur (Cədvəl 1). Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun həcmi 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,1% artaraq 1437,6 manata çatmışdır. 2024-cü ilin hesabat dövrü ərzində ümumi daxili məhsulun 27,9%-i malların istehsalından, 64,5%-i xidmətlərdən göstərilməsindən, 7,6%-i isə məhsula və idxala xalis vergilərdən ibarət olmuşdur.

**Cədvəl 1. 2024-cü ilin ilk yarımili üzrə ümumi daxili məhsulun strukturu, min manatla**

| Göstərcilər | Məhsulun faktiki dəyəri | Payı, %-lə |
|---|---|---|
| **Ümumi daxili məhsul, o cümlədən** | **674380,0** | **100,0** |
| ***Məhsul istehsalı*** | **187827,9** | **27,9** |
| Sənaye | 87346,6 | 13,0 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 73957,0 | 11,0 |
| Tikinti | 26524,3 | 3,9 |
| ***Xidmətlərin İstehsalı*** | **435237,7** | **64,5** |
| Nəqliyyat və anbar təsərrüfatı | 21521,3 | 3,2 |
| İnformasiya və rabitə | 10726,9 | 1,6 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 124206,0 | 18,4 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 16873,1 | 2,5 |
| Sosial və digər sahələr | 261910,4 | 38,8 |
| ***Məhsula və idxala xalis vergilər*** | **51314,4** | **7,6** |

*Cədvəl NMR DSK-nın hesabatları əsasında Hesablama Palatası tərəfindən hazırlanmışdır.*

Təqdim olunan məlumatlar əksər sahələr üzrə artım olduğunu deməyə imkan versə də, bəzi sahələr üzrə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə azalmaların olduğu müşahidə edilmişdir. Belə ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulu üzrə 3,9%, informasiya və rabitə sahəsi üzrə 0,5%, pərakəndə ticarət dövriyyəsi üzrə 1,2%, əhaliyə göstərilən ödənişli xidmətlərdən əldə olunan gəlirlərdə 0,8% artım, tikinti sahəsi üzrə 18,4%, kənd təsərrüfatı sahəsi üzrə 0,2% azalma müşahidə edilmişdir. Aparılan təhlillər bəzi sahələr üzrə azalmanın səbəbləri barədə müəyyən qənaətə (məsələn, tikinti sahəsi üzrə azalma əsas kapitala investisiyaların azalması ilə izah oluna bilər) gəlməyə imkan versə də, digər sahələr üzrə azalmanın səbəbləri ilə əlaqədar olaraq müfaviq məlumatlar təqdim edilməmişdir.

Əvvəlki il üzrə məlumatlar ətraflı təqdim edilmədiyi üçün artıma təsir edən sahələr barədə fikir bildirmək mümkün olmamışdır.

# II BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASI GƏLİRLƏRİNİN İCRA VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1. Gəlirlərin mənbələr üzrə icra vəziyyətinin və inzibatçılığın təhlili

### 2.1.1. 2024-cü ilin ilk yarısında Naxçıvan Muxtar Respublikası büdcəsinin ümumi gəlirlərinin, əksər mədaxil mənbələrinin cari dövrün proqnozu ilə müqayisədə artıqlaması ilə yerinə yetirilməsinə baxmayaraq, bəzi mədaxil mənbələri üzrə icra faizi aşağı olmuşdur.

2024-cü ilin ilk yarısında Naxçıvan Muxtar Respublika büdcəsinin gəlirləri 112,4 mln. manat məbləğində icra edilmişdir ki, bu da müvafiq dövrün proqnozu ilə müqayisədə 30,4% və ya 26,2 mln. manat artıq olmaqla, 2024-cü il üçün ilkin təsdiq edilmiş gəlirlərin 64,9%-nə bərabər olmuşdur.

Hesabat dövründə əksər mədaxil mənbələri üzrə faktiki icra məbləği təsdiq edilmiş proqnoz göstəricisindən çox olmuş, proqnozdan artıq icranın əsas mənbəyini yol vergisi, mənfəət vergisi və sair daxilolmalar təşkil etmişdir (Cədvəl 2).

**Cədvəl 2. Naxçıvan Muxtar Respublikasının büdcəsinin hesabat dövründə gəlirlərinin mənbələr üzrə göstəriciləri, min manatla**

| Mənbələr | 2024 6 ay | | Proqnozla müqayisə | |
|---|---|---|---|---|
| | proqnoz | icra | məbləğ | % |
| **Naxçıvan Muxtar Respublikasının gəlirləri** | **86166,0** | **112352,9** | **26186,9** | **130,4** |
| Fiziki şəxslərin gəlir vergisi | 20902,1 | 22321,7 | 1419,6 | 106,8 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 4135,7 | 10105,6 | 5969,9 | 2,4 dəfə |
| Hüquqi şəxslərin torpaq vergisi | 151,3 | 39,6 | -111,7 | 26,2 |
| Hüquqi şəxslərin əmlak vergisi | 954,9 | 1376,3 | 421,4 | 144,1 |
| Əlavə dəyər vergisi | 25849,4 | 27138,3 | 1288,9 | 105,0 |
| Sadələşdirilmiş vergi | 1852,0 | 2604,1 | 752,1 | 140,6 |
| Aksizlər | 24208,8 | 25341,8 | 1133,0 | 104,7 |
| Yol vergisi | 2467,0 | 12044,4 | 9577,4 | 4,9 dəfə |
| Mədən vergisi | 604,9 | 626,5 | 21,6 | 103,6 |
| Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 40,1 | 91,6 | 51,5 | 2,3 dəfə |
| Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 30,0 | 45,7 | 15,7 | 152,2 |
| Dövlət rüsumu | 3225,1 | 3496,9 | 271,8 | 108,4 |
| Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 1690,0 | 1649,4 | -40,6 | 97,6 |
| Sair daxilolmalar | 54,7 | 5471,0 | 5416,3 | 100,0 dəfə |

*Cədvəl NMR Maliyyə Nazirliyi tərəfindən təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi, 2 mədaxil mənbəyi üzrə dövr üçün proqnozların yerinə yetirilməsində kəsir qeydə alınmışdır. Büdcədənkənar daxilolmaların aşağı icrasının səbəbləri barədə aidiyyəti alt bölmədə məlumat verilir. Hüquqi şəxslərin torpaq vergisinin aşağı icrasının səbəbləri isə müvafiq istiqamətdə planlaşdırma zamanı dəqiqləşdirmələrin aparılması zərurətinin olduğunu deməyə əsas verir.

### 2.1.2. Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında Qanunda əks etdirilmiş bəzi mədaxil mənbələri üzrə təsdiq edilmiş məbləğin yarıdan çoxu, bəziləri üzrə isə illik nəzərdə tutulmuş vəsaitdən artıq olmaqla ilk 6 ay ərzində icra edilmişdir.

Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirlərinin bəzi mədaxil mənbələri üzrə illik nəzərdə tutulan vəsaitin böyük bir hissəsi, həmçinin bəzi mənbələr üzrə isə tam hissəsi artıqlaması ilə ilin birinci yarısında icra edilmişdir. Belə ki, hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, yol vergisi, dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar və sair daxilolmalar üzrə ilkin illik proqnozlar ilin ilk yarısında artıqlaması ilə yerinə yetirilmişdir. Bundan əlavə, 8 mədaxil mənbəyi üzrə illik proqnozun yarıdan çoxu ilk 6 ayda icra olunmuşdur (Cədvəl 3).

**Cədvəl 3. Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirlərinin mənbələr üzrə göstəriciləri, min manatla**

| Mənbələr | 2024 | | İcra faizi |
|---|---|---|---|
| | illik proqnoz | yarımillik icra | |
| **Naxçıvan Muxtar Respublikasının gəlirləri** | **173105,0** | **112352,9** | **64,9** |
| Fiziki şəxslərin gəlir vergisi | 41590,0 | 22321,7 | 53.7 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 8200,0 | 10105,6 | 123,2 |
| Hüquqi şəxslərin torpaq vergisi | 300,0 | 39,6 | 13.2 |
| Hüquqi şəxslərin əmlak vergisi | 1900,0 | 1376,3 | 72.4 |
| Əlavə dəyər vergisi | 51350,0 | 27138,3 | 52,8 |
| Sadələşdirilmiş vergi | 3690,0 | 2604,1 | 70,6 |
| Aksizlər | 49208,0 | 25341,8 | 51,5 |
| Yol vergisi | 5000,0 | 12044,4 | 2,4 dəfə |
| Mədən vergisi | 1200,0 | 626,5 | 52,2 |
| Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 80,0 | 91,6 | 114,5 |
| Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 60,0 | 45,7 | 76,2 |
| Dövlət rüsumu | 6387,0 | 3496,9 | 54,8 |
| Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 4030,0 | 1649,4 | 40,9 |
| Sair daxilolmalar | 110,0 | 5471,0 | 49,7 dəfə |

*Cədvəl NMR Maliyyə Nazirliyi tərəfindən təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

### 2.1.3. Hesabat dövründə bəzi tədiyələr üzrə proqnozlar reallaşmamış, bəzi tədiyələr üzrə isə proqnozlaşdırılmadığı halda gəlirlər icra edilmişdir.

Cari ilin birinci yarımilliyində proqnozlaşdırılan 194,5 min manat gəlir ümumiyyətlə icra edilməmişdir. Gəlir proqnozlaşdırıldığı halda icrası təmin edilməmiş 8 mənbə arasında “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazələrinin alınması və müddətlərinin uzadılmasına görə dövlət rüsumu” əsas paya malik olmuşdur (Cədvəl 4).

**Cədvəl 4. 2024-cü ilin ilk yarımilində Naxçıvan Muxtar Respublikasının büdcəsində proqnozlaşdırılan, lakin icra edilməyən mədaxil mənbələri, min manatla**

| Təsnifat kodu | Gəlir mənbələri | Proqnoz | İcra |
|---|---|---|---|
| 114518 | Alkoqolsuz energetik içkilər | 15,0 | 0,0 |
| 142221 | Daşınmaz əmlakın və ya mülkiyyətində daşınmaz əmlak olan müəssisədəki payın özgəninkiləşdirilməsi və yaşayış sahələrinin müvəqqəti istifadəyə verilməsi barədə müqavilələrin təsdiqinə görə | 28,5 | 0,0 |
| 142233 | Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələrinin, müvəqqəti olma müddətinin uzadılması barədə qərarın, Azərbaycan Respublikasında qaçqın statusu almış şəxslərə qaçqın vəsiqələrinin və yol sənədlərinin verilməsinə görə | 66,0 | 0,0 |
| 142274 | Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazələrinin alınması və müddətlərinin uzadılmasına görə | 71,5 | 0,0 |

** proqnozu 15 min manatdan çox olan mənbələr cədvələ daxil edilmişdir.*

*Cədvəl NMR Maliyyə Nazirliyi tərəfindən təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

### 2.1.4. Baxılan dövrdə heç bir daxilolma proqnozlaşdırılmayan mədaxil mənbələri üzrə icra təmin edilmiş, bu gəlirlərin həcmi 1,9 mln. manata bərabər olmuşdur.

Bu qrupa daxil olan mənbələr arasında "Qeyri-kommersiya təşkilatlarının kommersiya fəaliyyətindən gəlirlər" və "Sair cərimə və sanksiyalara görə daxilolmalar" məbləğinə görə fərqlənmişdir (Cədvəl 5).

**Cədvəl 5. Naxçıvan Muxtar Respublikası büdcəsinin proqnozlaşdırılmayan, lakin ilk yarımildə icra olunan daxilolmaları, min manatla**

| Təsnifat kodu | Gəlir mənbələri | Proqnoz | İcra |
|---|---|---|---|
| 111111 | Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində muzdlu işlə əlaqədar əldə edilən gəlirlərdən gəlir vergisi | 0,0 | 97,1 |
| 114113 | Azərbaycan Respublikasında istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı, həmçinin yerli və xarici mənşəli kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı ticarət əlavəsindən ödənilən əlavə dəyər vergisi | 0,0 | 98,9 |
| 114325 | İctimai iaşə fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən 8 faiz dərəcə ilə ödənilən sadələşdirilmiş vergi | 0,0 | 77,7 |
| 142300 | Qeyri-kommersiya təşkilatlarının kommersiya fəaliyyətindən | 0,0 | 1127,3 |
| 143300 | Sair cərimə və sanksiyalara görə daxilolmalar | 0,0 | 282,4 |

** icrası 70,0 min manatdan çox olan mənbələr cədvələ daxil edilmişdir.*

*Cədvəl NMR Maliyyə Nazirliyi tərəfindən təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

### 2.1.5. Gəlirlərin inzibatçı qurumlar üzrə bölgüsünün təhlili DVX xətti ilə daxilolmaların büdcədə xüsusi çəki baxımından digər gəlirlər üzərində üstünlüyünü qoruyub saxlaya bildiyini göstərmişdir.

Hesabat dövrü üçün Naxçıvan Muxtar Respublika büdcəsi üzrə daxilolmaların 97,2 mln. manatı və ya 86,5%-i Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti

(DVX), 12,0 mln. manatı və ya 10,7%-i Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin, 1,7 mln. manatı və ya 1,5%-i büdcə təşkilatlarının ödənişli xidmətlərinin, 1,5 mln. manatı və ya 1,3%-i isə sair daxilolmaların payına düşür (Şəkil 1).

**Şəkil 1. Büdcə gəlirlərini təmin edən orqanların xətti ilə daxilolmaların xüsusi çəkisi, %-lə**




*Şəkil Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

2024-cü ilin ilk yarımili üzrə büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalarından başqa Naxçıvan Muxtar Respublikası büdcə gəlirlərini təmin edən bütün inzibatçı qurumların daxilolmalarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artımlar (məbləğ ifadəsində) qeydə alınmışdır.

### *2.1.1 Dövlət Vergi Xidməti xətti ilə daxilolmaların təhlili*

**2.1.1.1. 2024-cü ilin ilk yarımilində sosial-iqtisadi göstəricilərdə qeydə alınan artım, əlverişli makroiqtisadi şəraitdə ayrı-ayrı mənbələr üzrə vergitutma bazasının artması, həmçinin inzibatçılıq tədbirlərinin gücləndirilməsi DVX xətti ilə Muxtar Respublika büdcəsinə təmin edilməli gəlirlər üzrə proqnozun artıqlaması ilə icra edilməsini şərtləndirmişdir.**

Hesabat dövründə Naxçıvan Muxtar Respublikasında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsulun 1,7% çox olması, orta aylıq əməkhaqqının 18,3% artaraq 767,3 manat olması, eyni zamanda Muxtar Respublikada məşğulluq imkanlarının artırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində dövlət proqramlarının həyata keçirilməsi, müvafiq fiskal qurumun inzibatçılıq tədbirlərini gücləndirilməsi DVX xətti ilə daxilolmaların proqnozdan çox icra edilməsinə səbəb olmuşdur. Belə ki, hesabat dövründə DVX xətti ilə Muxtar Respublika büdcəsinə proqnozla müqayisədə 15,1 mln. manat və ya 18,4%, 2023-cü ilin müvafiq dövrünün icra göstəricisi ilə müqayisədə isə 21,3 mln. manat və ya 28,1% çox olmaqla 97,2 mln. manat vəsait daxil olmuşdur.

**2.1.1.2. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bütün mülkiyyət növləri üzrə vergi ödəyicilərinin büdcə daxilolmaları artmış, lakin daxilolmalar real hesablamaya nisbətən az olmuşdur.**

2024-cü ilin ilk yarımilində DVX xətti ilə Naxçıvan Muxtar Respublika büdcəsinə təmin edilən gəlirlərin tərkibində dövlət mülkiyyəti üzrə 12,5 mln. manat, xüsusi mülkiyyət üzrə 43,0 mln. manat, digər mülkiyyət mənsubiyyətləri isə 41,7 mln. manat olmuşdur (Cədvəl 6).

**Cədvəl 6. Mülkiyyət mənsubiyyətinə görə vergi ödəyicilərinin NMR büdcəsi ilə hesablaşmaları, min manatla**

| Göstəricilər | Ümumi borc qalığı | | Artıq ödəmə | Hesabat dövrü üzrə hesablanmış (azaldılmış çıxılmaqla) | 2023-cü ilin müvafiq dövrü ilə müqayisə hesablanmış | | Hesabat dövrü üçün büdcəyə ödənil-miş | 2023-cü ilin müvafiq dövrü ilə müqayisə | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | İlin əvvəlinə | 01.07. 2024 tarixinə | 01.07 .2024 tarixinə | | Məbləğ | % | | Məbləğ | % |
| **Dövlət mülkiyyəti, o cümlədən** | **28,7** | **6575,5** | **17330,4** | **21994,3** | **9184,9** | **171,7** | **12487,8** | **3262,4** | **135,4** |
| Rəqəmsal inkişaf və Nəqliyyat Nazirliyi | | | 152,2 | 1560,5 | -54,7 | -3,4 | 1446,2 | -8,8 | 99,4 |
| Azəriqaz İB | | | 262,1 | 647,6 | -641,6 | -49,8 | 527,9 | -524,4 | 50,2 |
| “Azərenerji” ASC | | | 711,4 | 3334,6 | 975,1 | 141,3 | 1973,0 | -184,6 | 91,4 |
| “Azərbaycan Dəmir Yolları” QSC | | | 53,9 | 86,6 | 86,6 | -- | 83,0 | 83,0 | 100,0 |
| “Azərsu” ASC | | | 48,2 | 317,8 | 94,8 | 142,5 | 315,7 | 215,9 | 215,9 |
| “Azərbaycan Hava Yolları” QSC | | | 162,5 | 907,0 | 907,0 | -- | 964,2 | 964,2 | 100,0 |
| Digərləri | 28,7 | 6575,5 | 15940,2 | 15140,2 | 7817,9 | 206,8 | 7177,8 | 2717,2 | 160,9 |
| **Xüsusi mülkiyyət, o cümlədən** | **477,7** | **1568,0** | **10387,9** | **66260,8** | **5460,2** | **109,0** | **42998,7** | **2678,6** | **106,6** |
| Hüquqi şəxslər | 289,6 | 1025,5 | 7025,1 | 56956,7 | 804,5 | 101,4 | 38811,9 | 1136,1 | 103,0 |
| Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər | 188,0 | 542,6 | 3362,8 | 9304,1 | 4655,7 | 200,2 | 4186,7 | 1541,4 | 158,3 |
| **Digər mülkiyyət** | **17643,8** | **19321,7** | **689,7** | **48836,0** | **2791,5** | **106,1** | **41666,4** | **15275,3** | **272,8** |
| Bələdiyyə mülkiyyəti | | | 6,8 | | | -- | 1,1 | 1,1 | 100,0 |
| Xarici mülkiyyət | 11,4 | 347,9 | 573,2 | 5857,7 | -15213,6 | -72,2 | 3842,0 | 1527,2 | 166,0 |
| Birgə (xarici qarışıq) mülkiyyət | 17632,4 | 18973,8 | 109,7 | 42978,3 | 18005,1 | 172,1 | 37823,3 | 13747,0 | 157,1 |

*Cədvəl təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi, bütün mülkiyyət növləri üzrə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə büdcəyə ödənişlər artmışdır. Mülkiyyət növlərinin tərkibinə gəldikdə isə “Dövlət mülkiyyəti” üzrə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin daxilolmaları, “Azəriqaz İB” və “Azərenerji” ASC-nin daxilolmaları istisna olmaqla bütün mülkiyyət növləri üzrə vergi ödəyicilərinin

büdcə daxilolmaları artmışdır. Müvafiq istiqamətlər üzrə azalmanın səbəbləri ilə bağlı inzibatçı qurum tərəfindən məlumatlar təqdim edilməmişdir.

2024-cü ilin hesabat dövrü üçün Naxçıvan Muxtar Respublika büdcəsinə köçürülmüş daxilolmaların real hesablamalara nisbətən icrası dövlət mülkiyyəti üzrə 56,8%-ə, xüsusi mülkiyyət üzrə 64,9%-ə, digər (xarici, birgə, bələdiyyə) mülkiyyət üzrə isə 85,3%-ə bərabər olmuşdur.

**2.1.1.3. Dövlət mülkiyyətində olan vergi ödəyicilərinin artıqödəmələrinin əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artmasına baxmayaraq, ümumilikdə artıqödəmə məbləğlərində azalma müşahidə edilir.**

DVX-nin 2024-cü ilin ilk yarımili üzrə təqdim etdiyi hesabatlara əsasən, Muxtar Respublika büdcəsinə təmin olunan gəlirlər üzrə artıq ödəmənin məbləği əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15,4% azalaraq ilin sonuna 28,4 mln. manat təşkil etmişdir (Cədvəl 7). İlin əvvəli ilə müqayisədə artıq ödəmələrin məbləğində kiçik də olsa artım qeydə alınmışdır.

**Cədvəl 7. 2024-cü ilin 6 aylıq hesabat dövrü üçün artıqödəmələr barədə məlumat, min manatla**

| Göstəricilər | 2023 6 ay | 2024 6 ay | 2023-cü ilin müvafiq dövrü ilə müqayisə | |
|---|---|---|---|---|
| | | | Məbləğlə | %-lə |
| **Mülkiyyət mənsubiyyətinə görə cəmi** | **33 572,8** | **28 408,0** | **-5 164,8** | **84,6** |
| Dövlət mülkiyyəti | 17 042,9 | 17 330,4 | 287,5 | 101,7 |
| Xüsusi mülkiyyət | 14 126,0 | 10 387,9 | -3 738,1 | 73,5 |
| Bələdiyyə mülkiyyəti | 2,2 | 6,8 | 4,6 | 309,1 |
| Xarici mülkiyyət | 1 454,5 | 573,2 | -881,3 | 39,4 |
| Birgə (xarici qarışıq) mülkiyyət | 947,2 | 109,7 | -837,5 | 11,6 |

*Cədvəl təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Artıqödəmə məbləğlərinin əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə azalması hesabat ilində vergi ödəyicilərinə 44,3 min manat vergi məbləğlərinin qaytarılması şəraitində baş vermiş, qaytarılmış məbləğlər DVX-nin xətti ilə təmin edilmiş gəlirlərin 0,04%-ni təşkil etmişdir. Qeyd edək ki, 2023-cü ilin müvafiq dövründə bu göstərici 61,4 min manat təşkil etməklə təmin edilmiş gəlirlərin 0,08%-ni təşkil etmişdir.

### *2.1.2 Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsi xətti ilə daxilolmaların təhlili*

**2.1.2.1. Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsi xətti ilə daxilolmalar dövrün proqnozu ilə müqayisədə əhəmiyyətli artıq icra edilmiş, dövr üzrə icra olunmuş məbləğ yenidən baxılmaqla təsdiq edilmiş büdcədə nəzərə alınmışdır.**

Hesabat dövründə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən Naxçıvan Muxtar Respublikası büdcəsində yol vergisi üzrə nəzərdə tutulmuş 2,5 mln.manat proqnoza qarşı 12,0 mln.manat və ya 4,8 dəfə artıq vəsait yığılmışdır ki, bu da Naxçıvan Muxtar Respublikası büdcəsinin ilk yarımili üzrə gəlirlərinin 10,7%-ni təşkil etmişdir.

Qeyd edək ki, 2023-cü ilin müvafiq dövründə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən faktiki icra edilmiş gəlirlərinin 4,4 mln. manat olmasına baxmayaraq, 2024-cü ilin büdcə proqnozlarında bu nəzərə alınmamış, cari ilin müvafiq dövrü üçün proqnoz göstəriciləri əvvəlki ilin müvafiq dövrünün icra göstəricilərinə nisbətən əhəmiyyətli dərəcədə (2 dəfə) aşağı müəyyən edilmişdir. Bu isə qeyd edilən mənbə üzrə proqnozlaşdırmada dəqiqləşdirilmələrin aparılması zərurətinin yarandığını deməyə imkan verir. Qeyd edək ki, yenidən baxılmaqla təsdiq olunan büdcədə 6 aylıq dövr üçün faktiki daxilolma məbləği illik proqnoz kimi nəzərə alınmışdır.

### *2.1.3. Büdcədənkənar gəlirlərin təhlili*

**2.1.3.1. Aparılan təhlillər əsasında 2024-cü ilin ilk yarımilində büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların icrasının əvvəlki illərdən fərqləndiyi, habelə bu daxilolmaları formalaşdıran bəzi qurumların gəlirlərinin büdcədənkənar gəlir kimi nəzərə alınıb-alınmamasının konketləşdirilməsinə ehtiyac olduğu barədə qənaətə gəlinmişdir.**

Hesabat dövründə büdcə təşkilatlarının və büdcə təşkilatı olmamasına baxmayaraq gəlirləri Naxçıvan Muxtar Respublika büdcəsinin gəlirlərində əks etdirilən bəzi PHŞ-lərin iş və xidmətlərin göstərilməsindən, məhsul satışından və digər fəaliyyətlərindən əldə etdikləri büdcədənkənar gəlirləri proqnozlaşdırılmış 1,7 mln. manata qarşı 2,4% az olmaqla icra edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 621,1 min manat və ya 27,4% azdır (Cədvəl 8).

**Cədvəl 8. 2024-cü ilin ilk yarımili üzrə büdcədənkənar gəlirlərin inzibati təsnifat üzrə bölgüsü, manatla**

| İstiqamətlər | Proqnoz | icra | İcra %-i |
|---|---|---|---|
| Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi PHŞ | 237 927,0 | 19 936,0 | 8,4 % |
| Şərur Texniki Peşə və Sürücülük Məktəbi PHŞ | 53 000,0 | - | ---- % |
| Ordubad Texniki Peşə və Sürücülük Məktəbi PHŞ | 54 000,0 | 4 562,0 | 8,4 % |
| Naxçıvan Musiqi Kolleci | 77 936,0 | 45 304,0 | 58,1 % |
| Naxçıvan Qızlar Liseyi | 22 500,0 | 20 259,0 | 90,0 % |
| Naxçıvan MR Gigiyena və Epidemiologiya Mərkəzi | 65 810,0 | 6,0 | 0,0 % |
| Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsi | 5 040,0 | 500,0 | 9,9 % |
| Naxçıvan MR İqtisadiyyat Nazirliyi | 72 825,0 | 291 460,0 | 4 dəfə |
| Naxçıvan MR Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 698 399,0 | 927 361,0 | 132,8 % |
| Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 319 355,0 | 218 661,0 | 68,5 % |
| İcra və Probasiya Xidməti | 79 500,0 | 111 574,0 | 140,0 % |
| Naxçıvan MR Hərracların təşkili üzrə Auksion Mərkəzi PHŞ | 3 708,0 | 9 810,0 | 2,6 dəfə |
| **Yekun:** | **1 690 000,0** | **1 649 433,0** | **97,6 %** |

*Cədvəl təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir*

Cədvəldən göründüyü kimi, bəzi publik hüquqi şəxslərin 34,3 min manat gəlirləri büdcədənkənar gəlirlərdə nəzərə alınmışdır. Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasında büdcədənkənar vəsaitə dair tənzimləyici hüquqi akt mövcud deyil. Lakin "Azərbaycan

Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə" analoji olaraq tətbiq edildiyi təqdirdə, bu daxilolmaların büdcədənkənar gəlir kimi nəzərə alınması həmin Əsasnamənin 2.1-ci bəndinə uyğunluq baxımından müəyyən sualların yaranmasına səbəb olur. Belə ki, büdcədənkənar vəsaitlər malların satışından, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən *büdcə təşkilatlarının* əldə etdiyi vəsaitlər, habelə inzibati cərimələrin, maliyyə sanksiyalarının, dövlət nəfinə müsadirə olunmuş əmlakın satışından, habelə dövlət nəfinə müsadirə olunmuş pul vəsaitlərinə görə daxil olan vəsaitlərin qanunvericiliklə müəyyən edilmiş məbləğdə həmin gəlirlərin yığılmasını təmin edən dövlət orqanlarının xüsusi xəzinə hesabına köçürülən hissəsi, idarə və təşkilatların qanuna və ya ondan irəli gələn normativ hüquqi aktlara uyğun olaraq göstərdikləri xidmətlərə görə tutulan haqlar hesabına formalaşdırılır. "Büdcə sistemi haqqında" Qanuna əsasən *büdcə təşkilatı* - maliyyələşdirilməsi bilavasitə Azərbaycan Respublikasının dövlət büdcəsi və Naxçıvan Muxtar Respublikasının büdcəsi hesabına həyata keçirilən idarə və təşkilatlardır. Publik hüquqi şəxslər isə həmin Qanunun digər anlayışı olan –"dövlət müəssisələri" ilə əhatə olunur. Belə ki, dövlət müəssisəsi – paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan səhmdar cəmiyyət, məhdud məsuliyyətli cəmiyyət, digər təşkilati formada fəaliyyət göstərən hüquqi şəxslər və publik hüquqi şəxslərdir. Bundan əlavə qeyd olunmalıdır ki, büdcə sisteminin digər komponenti olan dövlət büdcəsi üzrə publik hüquqi şəxslərin xüsusi vəsaitləri büdcədənkənar gəlir kimi nəzərə alınmır. Beləliklə, publik hüquqi şəxslərin xüsusi vəsaitlərinin büdcədənkənar gəlir kimi nəzərə alınması büdcə gəlirlərinin 34,3 min manat çox göstərilməsi ilə nəticələnir. Təqdim edilmiş məlumatlara əsasən, bu məsələ 2024-cü ilin yenidən baxılan büdcəsində diqqətə alınmışdır.

Bundan əlavə, Naxçıvan MR Meliorasiya və Su Təsərrüfatı ASC-nin (dövlət müəssisəsinin) 927,4 min manat daxiolmalarının büdcədənkənar gəlir kimi tanınması məsələsi üzrə dəqiqləşdirmələrin aparılması zəruridir.

Eyni zamanda, 2023-cü il Naxçıvan Muxtar Respublikası büdcəsinin icrasına dair Hesablama Palatasının Analitik fəaliyyətində qeyd edildiyi kimi, bir sıra qurumların büdcədənkənar gəlirlərinin cari il üçün təsdiq edilmiş proqnoz göstəricilərindən dəfələrlə artıq icra edilməsi və ya dəfələrlə az icra edilməsi müvafiq istiqamətlər üzrə dəqiqləşdirmələrin aparılması zərurətini göstərir. Belə ki, cari ilin ilk yarımilində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin büdcədənkanar gəlirlərinin proqnoza qarşı 4 dəfə, Naxçıvan Muxtar Respublikası Hərracların təşkili üzrə Auksion Mərkəzi PHŞ-nin gəlirlərinin proqnoza qarşı 2,6 dəfə artıq icra edilmişdir.

Əvvəlki illə müqayisədə büdcədənkənar daxilolmaların azalmasının səbəbi "Şərur Texniki Peşə və Sürücülük Məktəbi", "Naxçıvan Tibb Kolleci", "Naxçıvan Dövlət Texniki Kollec", "Naxçıvan MR Gigiyena və Epidemiologiya Mərkəzi", "Naxçıvan MR Dövlət Baytarlıq Xidməti" və "Naxçıvan MR Dövlət Miqrasiya Xidməti" tərəfindən əvvəlki ildən fərqli olaraq cari ilin hesabat dövrü üzrə daxilolmaların olmaması ilə əlaqədar olmuşdur. Bu, qurumlardan bəzilərinin (Tibb kolleci, Texniki kollec) büdcə təşkilatlarının siyahısından çıxarılaraq Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi, "Naxçıvan MR Dövlət Baytarlıq Xidməti"nin ləğv edilməsi, "Naxçıvan MR Dövlət Miqrasiya

Xidməti"nin daxilolmalarının və xərclərinin aidiyyatı üzrə Azərbaycan Respublikası Dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinə aid edilməsi ilə əlaqədar olsa da, "Şərur Texniki Peşə və Sürücülük Məktəbi" üzrə əvvəlki ilin cari dövründə 33,4 min manat vəsait daxil olmasına baxmayaraq cari ilin müvafiq dövrü üçün daxilolmanın olmaması ilə bağlı izahedici məlumatlar təqdim edilməmişdir.

### *2.1.4. Sair daxilolmalar*

**2.1.4.1. Sair daxilolmalar proqnozla müqayisədə əhəmiyyətli dərəcədə artıq icra edilmiş, proqnozdan çox icra məbləği cərimə və sanksiyalardan formalaşmışdır.**

Hesabat dövründə proqnozla müqayisədə ən yüksək icra göstəriciləri sair daxilolmalar üzrə olmuşdur. Belə ki, sair daxilolmalar 54,7 min manat proqnoza qarşı 100,0 dəfə çox olmaqla 5471,0 min manat icra olunmuşdur. Qeyd edilən mənbə üzrə gəlirlər vergi və əmək qanunvericiliklərinin pozulmasına görə maliyyə sanksiyalarından və cərimələrdən, qeyri-kommersiya təşkilatlarının kommersiya fəaliyyətindən gəlirlərdən daxilolmalar hesabına formalaşmışdır. Qeyd edilən mənbə üzrə əvvəlki ilin müvafiq dövrü üzrə icra göstəricilərinin proqnoz göstəricilərindən artıq icra edilməsi, həmçinin cari ilin ilk yarımilində icra göstəricisinin təsdiq edilmiş illik proqnoz göstəricisindən 49,7 dəfə artıq olması müvafiq istiqamət üzrə büdcə layihəsi hazırlanarkən dəqiqləşdirilmələrin aparılması zərurətinin olduğunu deməyə əsas verir.

## 2.2. Məqsədli büdcə fondlarının daxilolmalarının təhlili

**2.2.1. Məqsədli Büdcə Fondunun gəlirlərinin təhlili ilə cari il üçün təsdiq edilmiş büdcədə bu Fondun gəlirlərinin əvvəlki illər üzrə faktiki icra göstəricisinin proqnozlaşdırılmada nəzərə alınmadığı barədə qənaətə gəlinmişdir.**

2024-cü ilin büdcə layihəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun gəlirləri xərclərinə bərabər olmaqla 5,9 mln. manat, cari ilin ilk yarımili üzrə fondun gəlirləri 2,9 mln. manat proqnozlaşdırılmışdır. Hesabat dövründə icra proqnozdan əhəmiyyətli dərəcədə çox (4,3 dəfə) olmaqla, 12,6 mln. manat təşkil etmişdir (Cədvəl 9).

**Cədvəl 9. "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun gəlirlərinin formalaşma mənbələri, min manatla**

| Gəlirlər | 2023 6 ay icra | 2024 6 ay proqnoz | 2024 6 ay icra | İcra faizi |
|---|---|---|---|---|
| Azərbaycan Respublikasının ərazisinə daxil olan və Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrinin sahibləri və ya həmin nəqliyyat vasitəsini idarə edən şəxslər tərəfindən ödənilən yol vergisi | 4 423,4 | 2 467,0 | 12 044,4 | 4,9 dəfə |
| Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 62,1 | 75,0 | 34,3 | 45,7% |
| Nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 1 677,1 | 360,0 | 526,2 | 146,2% |
| **Yekun:** | **6 162,6** | **2 902,0** | **12 604,9** | **4,3 dəfə** |

*Cədvəl təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Qeyd edək ki, 2023-cü ilin müvafiq dövrü üzrə "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun faktiki icra edilmiş gəlirlərinin proqnoz göstəricisi ilə müqayisədə çox olmasına baxmayaraq, 2024-cü ilin büdcə proqnozlarında bu nəzərə alınmamış, il üçün proqnoz göstəriciləri icra göstəricilərinə nisbətən əhəmiyyətli dərəcədə aşağı müəyyən edilmişdir.

### 2.3. Muxtar Respublika gəlirlərinin üzləşdirilməsi

**2.3.1. Hesabat dövründə Muxtar Respublika gəlirlərinin 95,1%-ni əhatə edən hesabatlar büdcənin icrası barədə hesabatla üzləşdirilmiş, büdcədənkənar daxilolmalar istisna olmaqla müqayisəli təhlil nəticəsində əhəmiyyətli kənarlaşmalar aşkar edilməmişdir.**

2024-cü ilin müvafiq dövrü üzrə icra olunmuş Muxtar Respublika büdcəsi gəlirlərinin (DVX, DGK Naxçıvan Baş Gömrük İdarəsi xətti ilə daxilolmalar, büdcədənkənar gəlirlər üzrə olmaqla) 95,1%-ni əhatə edən hesabatlar Hesablama Palatası tərəfindən üzləşdirilməklə təhlil edilmiş, əhəmiyyətli hesab ediləcək kənarlaşmalar (büdcədənkənar vəsaitlər istisna olmaqla) müəyyən edilməmişdir.

Aparılmış analitik prosedurlarla qurumlar tərəfindən büdcədənkənar vəsaitlərin icrası ilə bağlı təqdim olunan hesabatların 84,0%-nin müvafiq icra hakimiyyəti orqanının hesabatları ilə müqayisəsi aparılmış və müqayisə nəticəsində kənarlaşmalar müəyyən edilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən büdcədənkənar gəlirlər ilə bağlı təqdim edilmiş hesabatlar ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təqdim edilmiş hesabatlar arasında 17,5 min manat fərq olduğu müəyyən edilmişdir. Eyni zamanda, təhlillər bəzi qurumlar (Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi 23,2 min manat, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Maliyyə Tədris Mərkəzi 5,3 min manat, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi 14,2 min manat, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi 33,0 min manat, Naxçıvan Muxtar Respublika Prokurorluğu 737,42 manat, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 7,1 min manat, Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyi 23,0 min manat, Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət xidməti 200,0 min manat) tərəfindən büdcədənkənar gəlirlərin müvafiq qaydada smetasının təsdiq edilməməsi səbəbindən ilkin büdcədə nəzərə alınmadığını deməyə əsas verir. Qeyd edək ki, bu hal büdcənin gəlir parametrinin tamlığına da təsir etməkdədir. Təqdim edilmiş məlumatlara əsasən, yuxarıda göstərilən halların əksəriyyəti 2024-cü ilin yenidən baxılan büdcəsində diqqətə alınmışdır. Həmçinin, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən Ordubad Texniki Peşə və Sürücülük məktəbinin büdcədənkənar gəlirləri ilə bağlı məlumatların təqdim edilməməsi, Naxçıvan MR Musiqi Kolleci, Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən büdcə vəsaitlərindən istifadə ilə bağlı hesabatların vaxtında təqdim edilməməsi müvafiq istiqamətlər üzrə təhlilin aparılmasında çətinliklər yaratmışdır.

# III BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASI XƏRCLƏRİNİN İCRA VƏZİYYƏTİNİN TƏHLİLİ

## 3.1. Funksional təsnifat üzrə xərclərin icra vəziyyəti

**3.1.1. Hesabat dövründə funksional təsnifatın bölmələri üzrə icra faizi dövrün proqnozu ilə müqayisədə 44,8%-91,7% aralığında dəyişmiş, ən aşağı icra səviyyəsi "Səhiyyə" bölməsi üzrə olmuşdur.**

Hesabat dövründə Naxçıvan Muxtar Respublikasının büdcə xərcləri dövr üçün proqnoza qarşı 78,3% icra edilərək 191,7 mln. manat olmuşdur (Cədvəl 10).

İlk 6 ayda Naxçıvan Muxtar Respublikası büdcəsi xərclərinin funskional təsnifatın bölmələri üzrə icra vəziyyətinin təhlili göstərir ki, bütün bölmələr üzrə icra edilmiş xərclərin məbləği dövr üçün proqnozlaşdırılmış göstəricilərdən aşağı olmuşdur.

**Cədvəl 10. 2024-cü ilin ilk yarımilində funksional təsnifatın bölmələri üzrə xərclər, mln. manatla**

| Xərclərin istiqaməti | 6 ay proqnoz | 6 ay icra | Fərq | İcra faizi |
|---|---|---|---|---|
| Ümumi dövlət xidmətləri | 37 309,5 | 29 923,1 | -7 386,4 | 80,2 % |
| Müdafiə və milli təhlükəsizlik | 0,0 | 0,0 | 0,0 | |
| Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 42 287,9 | 34 355,3 | -7 932,6 | 81,2 % |
| Təhsil | 79106,2 | 72 567,4 | -6 538,8 | 91,7 % |
| Səhiyyə | 5 385,6 | 2 413,7 | -2 971,9 | 44,8 % |
| Sosial müdafiə və sosial təminat | 4 624,5 | 4 211,0 | -413,5 | 91,1 % |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 12 546,3 | 9 816,0 | -2 730,3 | 78,2 % |
| Mənzil və kommunal təsərrüfatı | 8 670,0 | 5 854,2 | -2 815,8 | 67,5 % |
| Kənd təsərrüfatı | 21144,2 | 13 307,2 | -7 837,0 | 62,9 % |
| Ətraf mühitin mühafizəsi | 6 746,9 | 4 105,7 | -2 641,2 | 60,9 % |
| İqtisadi fəaliyyət | 22 136,8 | 11 419,2 | -10 717,6 | 51,6 % |
| Əsas bölmələrə aid edilməyən xərclər | 4 844,5 | 3 702,9 | -1 141,6 | 76,4 % |
| **Yekun:** | **244 802,4** | **191 675,7** | **-53 126,7** | **78,3 %** |

*Cədvəl təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Cədvəldən də göründüyü kimi, funksional təsnifatın bölmələri üzrə icra səviyyəsi 44,8%-91,7% arasında dəyişmiş, ən aşağı icra səviyyəsi isə "Səhiyyə" bölməsinə aid olmuşdur.

Qeyd edək ki, "Səhiyyə" bölməsi üzrə iqtisadi təsnifatın 6 paraqrafı və 6 xərc maddəsi üzrə müvafiq dövr üçün vəsait nəzərdə tutulsa da, xərc edilməmişdir. Həyata keçirilən kənar dövlət maliyyə nəzarəti tədbirləri nəticəsində Səhiyyə Nazirliyinin aparatında və tabeli qurumlarında əvvəlki ildə də təsdiq edilmiş bəzi xərc maddələri üzrə icranın olmadığı, bəzi xərc maddələri üzrə icranın çox aşağı olması halları müəyyən edilmişdir. Cari ilin hesabat dövrü üzrə də qeyd edilən hallara rast gəlinməsi müvafiq istiqamətlər üzrə növbəti ilin büdcə proqnozu hazırlanarkən müvafiq dəqiqləşdirilmələrin aparılması zərurətinin olduğunu deməyə əsas verir.

Müdafiə və hüquq-mühafizə sahələri üzrə isə xərc vəsaitinin nəzərdə tutulmaması bu bölmə üzrə xərclərin Muxtar Respublika büdcəsindən çıxarılaraq dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilməsi ilə əlaqəli olmuşdur.

### *3.1.1 Ehtiyat fondunun icrası*

**3.1.1.1. Hesabat dövründə Naxçıvan Muxtar Respublikası büdcəsinin ehtiyat fondunun vəsaitinin həcmi qanunvericiliklə müəyyən edilmiş hədd çərçivəsində olmuş, lakin xərclərin bir qismi icra edilməyərək istifadəsiz saxlanılmışdır.**

Naxçıvan Muxtar Respublikası büdcəsinin icrası ilə bağlı təqdim edilmiş məlumatlara əsasən, 2024-cü ildə ehtiyat fondu üzrə cəmi 2,0 mln. manat vəsait nəzərdə tutulmuş, imzalanmış 6 sərəncama əsasən ümumilikdə 12 istiqamət üzrə hesabat dövrü üçün 1,23 mln. manat ayrılmış və ayrılmış vəsaitin 100,0% həcmində maliyyələşmə açılmışdır (Cədvəl 11). Ehtiyat fondu üzrə icra edilmiş vəsait qanunvericilikdə müəyyən edilmiş hədd çərçivəsində olmuşdur.

Əlavə olaraq onu da qeyd edək ki, aparılan analitik prosedurlara əsasən müvafiq sərəncamlar üzrə bəzi layihələrin maliyyələşdirilməsi üçün ayrılmış vəsaitlərin cəmi ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən hesabat dövrü üçün "ehtiyat fondu"nun icrası ilə bağlı təqdim edilmiş hesabatlar arasında ümumilikdə 113865,92 manat fərq müəyyən edilmişdir. Təqdim edilmiş məlumatlara əsasən, fərq məbləği müvafiq sərəncama əsasən III rübün əvvəlində geri qaytarılmış vəsaitlə əlaqəlidir.

**Cədvəl 11. Ehtiyat fondları barədə məlumat, mln. manatla**

| Ehtiyat fondları | Nəzərdə tutulan məbləğ | Cari ilin ötən dövrü ərzində imzalanmış sərəncamlara əsasən ayrılması nəzərdə tutulan məbləğ | 30.06.2024-cü il tarixə faktiki açılmış maliyyələşdirmə məbləği | Sərəncam verilməmiş vəsait qalığı | İmzalanmış sərəncamlara əsasən açılmamış maliyyələşdirmə |
|---|---|---|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu | 2,0 | 1,23 | 1,2 | 0,77 | 0,1 |

*Cədvəl təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Sərəncamların rüblər üzrə təhlili göstərir ki, ehtiyat fondu üzrə həm say ifadəsində, həm də məbləğ ifadəsində ən böyük xüsusi çəki 1-ci rübə aid olmuşdur.

### *3.1.2 Dövlət əsaslı vəsait qoyuluşunun icrası*

**3.1.2.1. 2024-cü ilin ilk yarımili üzrə dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulmuş vəsaitin icra faizi aşağı olmuş, bəzi layihələr üzrə ödənişə başlanılmamışdır.**

2024-cü ilin ilk yarımilində Naxçıvan Muxtar Respublikası büdcəsində dövlət əsaslı vəsait qoyuluşu cari il üçün nəzərdə tutulmuş 22,0 mln. manatın 6 aylıq bölgüsünə (8,6 mln. manat) qarşı 5,6 mln. manat (65,9%) icra olunmuşdur. Müvafiq sərəncamlara əsasən dövlət əsaslı vəsait qoyuluşu üçün Naxçıvan Muxtar Respublika büdcəsində nəzərdə tutulmuş 22,0 mln. manat vəsaitin 20,6 mln. manatının 2024-cü ilin ilk yarısında 13 sifarişçi təşkilata 28 layihə üzrə bölgüsü aparılmışdır. 2024-cü ilin 6 ayı ərzində 9 sifarişçi təşkilat üzrə 13 layihəyə cəmi 5,6 mln. manat

vəsait ödənilmişdir ki, bu da sərəncamlara əsasən ayrılmış vəsaitin 27,2%-həcmində olmuşdur. Baxılan dövr ərzində 9 sifarişçi təşkilat üzrə 15 layihə üçün nəzərdə tutulmuş 8,7 mln. manat vəsait üzrə ödənişə başlanılmamışdır.

## *3.2. İqtisadi təsnifat üzrə xərclərin icra vəziyyəti*

### 3.2.1. Hesabat dövründə Naxçıvan Muxtar Respublikası büdcəsinin xərclərinin əsas hissəsi sosialyönlü xərclər üzrə icra olunmuş, iqtisadi təsnifatın bölmələri üzrə icra faizi 47,4%-88,2% arasında dəyişmişdir.

Naxçıvan Muxtar Respublikası büdcə xərclərinin 2024-cü ilin ilk yarımilinin icrası haqqında hesabatların təhlili, büdcə xərclərinin mühüm hissəsinin əməyin ödənişi üzrə olduğunu göstərir. Müvafiq istiqamət üzrə büdcə xərclərinin nəticələri büdcənin sosial sahəyə yönəldildiyini göstərir (Cədvəl 12).

**Cədvəl 12. 2024-cü ilin ilk yarımili üzrə büdcə xərclərinin iqtisadi təsnifat üzrə icrası, min manatla**

| Bölmənin adı | 2023 6 ay icra | 2024 6 ay proqnoz | 2024 6 ay icra | Ümumi xərclərə nisbəti, %-lə | İcra faizi |
|---|---|---|---|---|---|
| Əməyin ödənişi | 152 117,5 | 164218,6 | 144 895,7 | 75,6 % | 88,2 % |
| Malların (işlərin və xidmətlərin) satınalınması | 25 886,3 | 36 120,0 | 21 571,2 | 11,3 % | 59,7 % |
| Subsidiyalar | 10 371,4 | 15 300,6 | 9 139,6 | 4,8 % | 59,7 % |
| Qrantlar və digər ödənişlər | 1 110,0 | 4 759,8 | 3 914,7 | 2,0 % | 82,2 % |
| Sosial ödənişlər | 34 884,9 | 3 030,5 | 2 016,9 | 1,1 % | 66,6 % |
| Qeyri-maliyyə aktivləri | 13 100,9 | 21 372,8 | 10 137,7 | 5,3 % | 47,4 % |
| **Yekun** | **237 471,0** | **244 802,3** | **191 675,8** | **100,0 %** | **78,3 %** |

*Cədvəl təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir*.

Cədvəldən göründüyü kimi, iqtisadi təsnifatın bölmələri üzrə icra faizi 47,4%-88,2% arasında dəyişmiş, icra edilməyən xərclərin də əsas hissəsi əməyin ödənişinə aid olmuşdur.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə iqtisadi təsnifatın “Qrantlar və digər ödənişlər” bölməsi istisna olmaqla, digər bölmələr üzrə azalma qeydə alınmışdır. Belə ki, mütləq ifadədə ən böyük azalma “Sosial ödənişlər” (32,9 mln. manat) və “Əməyin ödənişi” (7,2 mln. manat) bölmələri üzrə, nisbi ifadədə ən böyük azalma isə “Sosial ödənişlər” (94,2%), “Qeyri-maliyyə aktivləri” (22,6%) və “Malların (işlərin və xidmətlərin) satınalınması” (16,7%) bölmələri üzrə müşahidə edilmişdir. Qeyd edək ki, “Sosial ödənişlər” bölməsi üzrə azalma əsasən əvvəlki illərdə bu öhdəliklərin maliyyələşdirilməsi üçün Muxtar Respublika büdcəsində nəzərdə tutulan vəsaitin, eləcə də ünvanlı dövlət sosial yardımı ilə bağlı xərclərin cari ildə Muxtar Respublika büdcəsinin xərclərindən çıxarılaraq Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində nəzərdə tutulması ilə əlaqəli olmuşdur. Digər bölmələr üzrə azalmanın səbəbləri ilə əlaqədar olaraq müvafiq qurum tərəfindən əsaslandırıcı məlumat təqdim edilməmişdir. “Qrantlar və digər ödənişlər” bölməsi üzrə artım isə əsasən Qida Təhlükəsizliyi İnstitutu PHŞ, Gənclər Fondu PHŞ, Sosial Xidmətlər Agentliyi PHŞ və Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyi üzrə vəsaitlərin

nəzərdə tutlması və bəzi Naxçıvan Muxtar Respublikası büdcəsindən maliyyələşən (maliyyə yardımı alan) PHŞ-lərin əvvəlki ilin müvafiq dövründən sonra yaradılması ilə əlaqədar olmuşdur.

**3.2.2. Təsdiq olunmuş Muxtar Respublika büdcəsi xərcləri üzrə hesabat dövrü ərzində iqtisadi təsnifat üzrə ümumilikdə 90,3 min manat həcmində dəyişiklik aparılmışdır.**

Hesabat dövrü ərzində Muxtar Respublika büdcəsində “Əməyin ödənişi” bölməsi üzrə təsdiq edilmiş məbləğ 15,9 min manat azaldılmış, 34,3 min manat isə artırılmışdır. Əlavə olaraq, “Malların (işlərin və xidmətin) satınalınması” bölməsi üzrə 49,7 min manat azaldılmış, 46,5 min manat artırılmış, “Sosial ödənişlər” bölməsi üzrə 20,7 min manat azaldılmış, 6,5 min manat artırılmış, “Qeyri-maliyyə aktivləri” bölməsi üzrə isə 4,0 min manat azaldılmış, 3,0 min manat isə artırılmışdır.

Aparılan analitik prosedurlara əsasən qeyd edək ki, Naxçıvan Muxtar Respublikası büdcəsinin hesabat dövrü üzrə icrası prosesində həyata keçirilmiş dəyişikliklərin əsas hissəsi “Əməyin ödənişi” və “Malların (işlərin və xidmətin) satınalınması” bölmələri üzrə olmuşdur.

Onu da qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən hesabat dövrü üçün Muxtar Respublika büdcəsinin icrasına dair təqdim etdiyi hesabatlarda ilkin təyinatın göstərilməməsi büdcənin icrası prosesində iqtisadi təsnifatın bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələri arasında aparılmış dəyişikliklərin təhlilində müvafiq çətinliklər yaratmışdır.

### *3.3. İnzibati təsnifat üzrə xərclərin icra vəziyyəti*

**3.3.1. Hesabat dövründə “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununun 18.3-1-ci maddəsi ilə müəyyən edilmiş hesabatlar bir sıra qurumlar tərəfindən Hesablama Palatasına təqdim edilməmişdir.**

“Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununun 18.3-1-ci maddəsinə əsasən büdcə təşkilatları və dövlət büdcəsindən maliyyə yardımları alan təşkilatlar həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada rüblük və ilin əvvəlindən artan yekunla funksional, iqtisadi və inzibati təsnifat üzrə hesabatları müvafiq icra hakimiyyəti orqanına, habelə Hesablama Palatasına təqdim edirlər. Hüquqi aktda büdcə təşkilatları və dövlət büdcəsindən maliyyə yardımları alan təşkilatlar tərəfindən həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada yarımillik (2-ci rüb üzrə) hesabatların Hesablama Palatasına təqdim edilmə tarixinin 20 iyul tarixinədək olmasına baxmayaraq, bir sıra qurumlar tərəfindən hüquqi aktların tələblərinə riayət edilməmiş və yarımillik (II rüb üzrə) hesabatlar 2024-cü il 12 avqust tarixinədək Hesablama Palatasına göndərilməmişdir (Cədvəl 13).

**Cədvəl 13. Qanunvericilikdə müəyyən edilmiş hesabat formalarını müvafiq tarixədək Hesablama Palatasına təqdim etməyən qurumlar**

| Qurumların adı |
|---|
| Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| Şərur Rayon İcra Hakimiyyəti |

| |
|---|
| Şahbuz Rayon İcra Hakimiyyəti |
| Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi |
| Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi |
| İqtisadiyyat Nazirliyi Yanında Əmlak Məsələləri Dövlət Xidməti |

*Cədvəl müvafiq məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Eyni zamanda qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən qanunvericiliyə uyğun formada büdcə vəsaitlərindən istifadə ilə bağlı hesabatlar tam həcmdə təqdim edilmədiyi üçün müvafiq istiqamət üzrə təhlillərin aparılmasında müəyyən çətinliklər yaranmışdır.

**3.3.2. 2024-cü ilin hesabat dövrü üzrə icra olunmuş Muxtar Respublika büdcəsi xərclərinin 65,8%-ni əhatə edən hesabatlar üzləşdirilməklə təhlil edilmiş, bəzi hallarda büdcə vəsaitlərinin istifadəsi ilə bağlı hesabatlar üzrə kənarlaşmalar müəyyən edilmişdir.**

2024-cü ilin hesabat dövrü üzrə Muxtar Respublika büdcəsinin icrasının təhlili zamanı Muxtar Respublika büdcəsi vəsaitlərinin icraçısı olan qurumların vəsaitlərin istifadəsi ilə bağlı təqdim etdiyi hesabatların təhlilinin nəticələrindən də istifadə edilmişdir.

Hesablama Palatası tərəfindən təhlil zamanı 47 qurum üzrə 126,2 mln. manatı əhatə edən və vəsaitlərin icrasını təsdiq edən xəzinə üzləşmə aktları habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təqdim edilmiş hesabatlar nəzərdən keçirilmişdir ki, bu da hesabat dövrü ərzində icra edilmiş Naxçıvan Muxtar Respublikası büdcə xərclərinin 65,8%-ni təşkil edir.

Aparılmış analitik prosedurlarla qurumlar tərəfindən büdcə təşkilatlarının vəsaitlərinin icrası ilə bağlı təqdim olunan hesabatların müvafiq icra hakimiyyəti orqanının hesabatları ilə müqayisəsi nəticəsində kənarlaşmalar müəyyən edilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən təqdim edilmiş hesabatlarda məktəbəqədər təhsil paraqrafı üzrə 374,5 min manat, Səhiyyə Nazirliyi tərəfindən təqdim edilmiş hesabatlarda sanitar-epidemioloji xidmətlər paraqrafı üzrə 30,4 min manat, Naxçıvan Muxtar Respublikası Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təqdim edilmiş hesabatlara əsasən 182,1 min manat, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim edilmiş hesabatlara əsasən “Sosial Müdafiə və Sosial Təminat sahələri üzrə digər müəssisə və tədbirlər” paraqrafı üzrə ümumilikdə 572,2 min manat fərq müəyyən edilmişdir ki, bu da müvafiq qurumlar tərəfindən hesabatların düzgün tərtib edilməməsi qənaətinə gəlməyə imkan verir.

Əlavə olaraq qeyd edək ki, bəzi qurumlar tərəfindən təqdim edilmiş yarımillik hesabatlara əsasən kassa icrasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən Muxtar Respublika büdcəsinin yarımillik icrası ilə bağlı təqdim etdiyi icra göstəricilərindən artıq olduğu müəyyən edilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən təqdim edilmiş hesabatlara əsasən kassa icrasının 1161,0 manat, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən təqdim edilmiş hesabatlara əsasən kassa icrasının 3596,0 manat, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təqdim edilmiş hesabatlara əsasən kassa icrasının 1293,0 manat, Naxçıvan Muxtar

Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təqdim edilmiş hesabatlara əsasən kassa icrasının 305,0 manat olmaqla, müvafiq icra hakimiyyəti orqanı tərəfindən Muxtar Respublika büdcəsinin yarımillik icrası ilə bağlı təqdim etdiyi icra göstəricilərindən artıq olduğu müəyyən edilmişdir. Bu isə, müvafiq qurumlar tərəfindən cari dövr üçün maliyyə hesabatlılığının düzgün aparılmadığını deməyə əsas verir.

Bundan əlavə, bəzi hallarda muxtar respublika büdcəsinin icrası ilə bağlı hesabatla qurum tərəfindən təqdim edilən məlumatlar arasında yaranmış fərqin araşdırılması həmin məbləğin tabelikdə olan və büdcədə ayrıca sətirlə göstərilən qurum tərəfindən icra olunduğunu göstərir. Məsələn, Muxtar Respublika büdcəsinin icrası barədə hesabatda İqtisadiyyat Nazirliyi üzrə əks olunan xərclərin müəyyən hissəsinin Nazirlik tərəfindən deyil, "Auksion Mərkəzi" PHŞ tərəfindən icra edildiyi müəyyən edilmişdir. Qeyd edək ki, bu kimi hallara 2023-cü il üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin icrasına dair aparılmış analitik fəaliyyət zamanı da rast gəlinmişdir.

### 3.3.3. Muxtar Respublika büdcəsi xərclərinin ayrı-ayrı qurumlar tərəfindən icrası vəziyyətinin təhlili hesabat dövründə əksər istiqamətlər üzrə icra səviyyəsinin ilkin təyinata qarşı 80%-dən yüksək olduğunu göstərsə də, bəzi qurumlar üzrə aşağı olmuşdur.

Muxtar respublika büdcəsinin xərcləri üzrə icra edilmiş 191,6 mln. manat 53 istiqaməti əhatə etmişdir. İnzibati təsnifat üzrə icra faizi 11,9%- 100,0% arasında dəyişmişdir (Cədvəl 14).

**Cədvəl 14. 2024-cü ilin ilk yarımili üzrə təyinata qarşı icra faizi aşağı olan xərc istiqamətləri (inzibati təsnifat) min manatla**

| İnzibati təsnifat üzrə xərc istiqamətləri | 2024-cü ilin ilk yarımili üzrə təyinat | İcra | İcra faizi |
|---|---|---|---|
| Qida Təhlükəsizliyi İnstitutu PHŞ | 511,1 | 61,0 | 11,9 |
| Naxçıvan Muxtar Respublikası Dövlət Ehtiyatları Agentliyi | 223,0 | 59,5 | 26,7 |
| Kənd Təsərrüfatı yanında Aqrar Xidmətlər Agentliyi | 574,5 | 193,9 | 34,8 |
| Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 1 416,2 | 622,2 | 43.9 |
| Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 876,5 | 473,5 | 54,0 |
| Naxçıvan Kənd Təsərrüfatı Elmi Tədqiqat İnstitutru | 354,6 | 194,4 | 54,8 |
| Qida Təhlükəsizliyi Agentliyi | 581,2 | 330,9 | 56,9 |
| Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Maliyyə Tədrisi Mərkəzi | 94,9 | 59,1 | 62,3 |

*Cədvəl təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Əlavə olaraq qeyd edək ki, Muxtar Respublika büdcəsindən maliyyələşən bəzi təşkilatların (Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman)) xərcləri vahid büdcə təsnifatına uyğun nəzərdə tutulmamış, "Digər mərkəzi təşkilatların fəaliyyəti" paraqrafında nəzərdə tutulmalı olduğu təqdirdə, 1.1.3 "Mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyəti" paraqrafında nəzərdə tutulmuş və xərc edilmişdir.

### 3.3.1 Büdcədənkənar xərclərinin icrasının təhlili

**3.3.1.1. Hesabat dövründə əldə edilmiş büdcədənkənar gəlirlərin 12,9%-i xərclərə yönəldilmiş, bəzi təşkilatlar üzrə daxilolmaların olmasına baxmayaraq, büdcədənkənar gəlirlərdən xərc edilməmişdir.**

Yuxarıda da qeyd edildiyi kimi, hesabat ilində büdcə təşkilatlarının iş və xidmətlərin göstərilməsindən, məhsul satışından və digər fəaliyyətlərindən əldə etdikləri büdcədənkənar gəlirləri proqnozlaşdırılmış 1,7 mln. manata qarşı 1,6 mln. manat məbləğində icra edilmişdir. Həmin məbləğin 217,9 min manatı büdcədənkənar xərc kimi icra olunmuşdur. Hesabat dövründə büdcədənkənar xərclərin icra edilmiş muxtar respublika büdcəsi xərclərindəki payı 0,1% təşkil etmişdir.

**3.3.1.2. Hesabat dövründə Muxtar Respublika büdcəsindən maliyyələşən bəzi təşkilatlar üzrə büdcədənkənar gəlir və xərcin proqnozlaşdırılmasına baxmayaraq, icra həyata keçirilməmişdir.**

2024-cü ilin müvafiq dövrü üzrə Muxtar Respublika büdcəsində icra edilmiş büdcədənkənar xərclər 8 qurumun büdcədənkənar xərclərini əhatə etmişdir. Hesabat dövründə də bəzi istiqamətlər (Naxçıvan MR İctimai Səhiyyə Xidməti (GEM), Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, Naxçıvan MR Hərracların təşkili üzrə Auksion Mərkəz) üzrə proqnozlaşdırılmış büdcədənkənar xərclər icra edilməmişdir. Qeyd edək ki, aparılan təhlil həmin istiqamətlər üzrə büdcədənkənar xərcin icra edilməməsinin əsasən hesabat dövrü ərzində büdcədənkənar gəlirlərin əldə edilməməsi ilə bağlı olduğunu göstərsə də, Naxçıvan MR Hərracların təşkili üzrə Auksion Mərkəz PHŞ-in gəlirlərinin olmasına baxmayaraq icra həyata keçirilməmişdir.

Əvvəlki kimi, həm büdcədənkənar gəlirlər, həm də bu gəlirlərdən formalaşan büdcədənkənar xərclər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə azalmışdır (Cədvəl 15).

**Cədvəl 15. 2024-cü ilin hesabat dövrü üzrə büdcədənkənar xərclərin inzibati təsnifat üzrə bölgüsü, manatla**

| İstiqamətlər | 2023-ci il yarımillik | | 2024-cü il yarımillik | | |
|---|---|---|---|---|---|
| | Gəlir | Xərc | Gəlir | Xərc | İcra %-i |
| Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi PHŞ | 121 793,0 | 39 447,0 | 19 936,0 | 13 396,0 | 67,2 |
| Şərur Texniki Peşə və Sürücülük Məktəbi | 33 450,0 | 18 672,0 | 0,0 | 0,0 | 0,0 |
| Ordubad Texniki Peşə və Sürücülük Məktəbi | 19 331,0 | 14 933,0 | 4 562,0 | 1 574,0 | 34,5 |
| Naxçıvan Tibb Kolleci | 76 312,0 | 28 454,0 | 0,0 | 0,0 | 0,0 |
| Naxçıvan Musiqi Kolleci | 39 540,0 | 2 332,0 | 45 304,0 | 12 773,0 | 28,2 |
| Naxçıvan Dövlət Texniki Kollec | 88 881,0 | 21 695,0 | 0,0 | 0,0 | 0,0 |
| Naxçıvan Qızlar Liseyi | 18 586,0 | 0,0 | 20 259,0 | 5 401,0 | 26,7 |
| Naxçıvan MR Gigiyena və Epidemiologiya Mərkəzi | 65 632,0 | 7 864,0 | 6,0 | 0,0 | 0,0 |
| Naxçıvan MR Dövlət Baytarlıq Xidməti | 1 742,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| Naxçıvan MR Dövlət Televiziya və | 2 000,0 | 0,0 | 500,0 | 0,0 | 0,0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Radio Verilişləri Komitəsi | | | | | |
| Naxçıvan MR İqtisadiyyat Nazirliyi | 20 004,0 | 15 751,0 | 291 460,0 | 19 216,0 | 6,6 |
| Naxçıvan MR Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 868 138,0 | 787 633,0 | 927 361,0 | 3 383,0 | 0,4 |
| Naxçıvan MR Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti | 765 121,0 | 27 426,0 | 0,0 | 0,0 | 0,0 |
| Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 66 037,0 | 0,0 | 218 661,0 | 97 483,0 | 44,6 |
| Naxçıvan MR Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 500,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| İcra və Probasiya Xidməti | 84 757,0 | 46 999,0 | 111 574,0 | 64 636,0 | 57,9 |
| Naxçıvan MR Hərracların təşkili üzrə Auksion Mərkəz | 10 245.0 | 110 | 9 810,0 | 0,0 | 0,0 |
| Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti | 8 980,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| **Yekun:** | **2 291 049,0** | **1 011 317,0** | **1 649 433,0** | **217 863,0** | **13,2** |

*Cədvəl müvafiq məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

# IV BÖLMƏ. NAXÇIVAN MUXTAR RESPUBLİKASI BÜDCƏSİNİN VAXTINDA İCRASI VƏ XƏZİNƏ HESABININ MÜVAFİQ QALIĞININ HƏRƏKƏTİNİN TƏHLİLİ

## 4.1. Naxçıvan Muxtar Respublikasının büdcə vəsaitlərinin vaxtında icrasının təhlili

**4.1.1. 2024-cü ilin hesabat dövründə Muxtar Respublika büdcəsinin gəlirlərinin proqnozla müqayisədə icra səviyyəsi aylar üzrə 117,0%-145,7% arasında dəyişmiş, yüksək vergi daxilolmaları dövlət büdcəsindən ayrılan dotasiyaya qənaətlə nəticələnmişdir.**

Muxtar Respublika büdcəsinin gəlirləri cari ilin bütün ayları üzrə proqnozdan artıq icra edilmişdir (Cədvəl 16).

**Cədvəl 16. 2024-cü ilin ilk yarımilinin ayları üzrə muxtar respublika büdcəsi gəlirlərinin proqnoz və faktiki icra göstəriciləri, min manatla**

| Aylar | Proqnoz | Proqnozlaşdırılmış gəlirlərinin aylar üzrə bölgüsü (dövr üçün) | İcra | Aylar üzrə icra edilmiş gəlirlərin yarımil üçün proqnozlaşdırılmış gəlirlərə nisbəti | Fərq |
|---|---|---|---|---|---|
| | **86 166,0** | **100 %** | **112352,9** | **130,4 %** | **26 186,9** |
| Yanvar | 13208,0 | 15,4% | 19239,3 | 22,3% | 6 031,3 |
| Fevral | 12760,0 | 14,8% | 16605,7 | 19,3% | 3 845,7 |
| Mart | 15444,0 | 17,9% | 18074,0 | 21,0% | 2 630,0 |
| Aprel | 14648,0 | 17,0% | 19505,7 | 22,6% | 4 857,7 |
| May | 14689,0 | 17,0% | 18159,9 | 21,1% | 3 470,9 |
| İyun | 15417,0 | 17,9% | 20768,3 | 24,1% | 5 351,3 |

*Cədvəl NMR Maliyyə Nazirliyi tərəfindən təqdim edilmiş Naxçıvan Muxtar Respublikası büdcə gəlirlərinin 2023-cü ildə icrası haqqında hesabata əsasən Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Proqnozla müqayisədə ən yüksək icra səviyyəsi 145,7% təşkil etməklə yanvar ayında qeydə alınmışdır. Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin dövr üçün proqnoz nəzərə alınmaqla yanvar ayı üçün müəyyənləşdirilmiş göstərici 15,4% olsa da, faktiki göstərici 6,9 faiz bəndi artıq olmaqla 22,3% təşkil etmişdir. Proqnozla müqayisədə ən aşağı icra səviyyəsi isə 117,0% təşkil etməklə mart ayında qeydə alınmışdır. Belə ki, dövr üçün proqnoz nəzərə alınmaqla mart ayı üçün müəyyənləşdirilmiş göstərici 17,9% olsa da, faktiki göstərici bundan 3,1 faiz bəndi çox olmuşdur.

Büdcə gəlirlərinin faktiki göstəricisinin bütün aylar üzrə proqnozdan artıq olması dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə ayrılan dotasiyada qənaəti şərtləndirmişdir. Belə ki, 2024-cü ilin müvafiq dövrü üçün dövlət büdcəsindən ümumilikdə 150,1 mln. manat dotasiya ayrılmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14,9 mln.manat və ya 9,0% azdır.

**4.1.2. Hesabat dövründə Muxtar Respublika büdcəsinin xərclərinin proqnozla müqayisədə icra səviyyəsi rüblər üzrə 48,3% və 51,7% olmuş, vəsaitin əsas hissəsi II rübdə xərc edilmişdir.**

Cari ilin hesabat dövründə rüblər üzrə xərclərin icrası həmin rüb üzrə nəzərdə tutulmuş məbləğdən az olmuşdur (Cədvəl 17).

**Cədvəl 17. 2024-cü ilin ilk yarımilində rüblər üzrə muxtar respublika büdcəsi xərclərinin proqnoz və faktiki icra göstəriciləri, min manatla**

| Rüblər | Proqnoz | Proqnozlaşdırılmış xərclərin rüblər üzrə bölgüsü (dövr üçün) | İcra | Rüblər üzrə icra edilmiş xərclərin ilk yarımil üçün proqnozlaşdırılmış xərclərə nisbəti | Fərq |
|---|---|---|---|---|---|
| | **244 802,4** | **100 %** | **191 675,8** | **78,3 %** | **53 126,6** |
| **I rüb** | 118 739,4 | 48,5 | 92 559,8 | 37,8 | 26 179,6 |
| **II rüb** | 126 063,0 | 51,5 | 99 116,0 | 40,5 | 26 947,0 |

*Cədvəl NMR Maliyyə Nazirliyi tərəfindən təqdim edilmiş Naxçıvan Muxtar Respublikası büdcə xərclərinin 2023-cü ildə icrası haqqında hesabata əsasən Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Proqnozla müqayisədə ən yüksək icra səviyyəsi 40,5% təşkil etməklə II rüb qeydə alınmışdır. Belə ki, dövr üçün proqnoz nəzərə alınmaqla II rüb üçün Naxçıvan Muxtar Respublikası büdcə xərclərinin üzrə göstərici 51,5% olsa da, faktiki göstərici 11,0 faiz bəndi az olmaqla 40,5% təşkil etmişdir. Cədvəldən göründüyü kimi, II rüb 99,1 mln. manat xərc edilmişdir ki, bu da 2024-cü ilin hesabat dövrü üçün icra olunmuş cəmi Muxtar Respublika büdcəsi xərclərinin 51,7%-nə bərabərdir.

## 4.2. Xəzinə hesabının müvafiq qalığının hərəkətinin təhlili

### 4.2.1. 2024-cü ilin hesabat dövründə Muxtar Respublika büdcəsi balansının aylar üzrə proqnoz və faktiki icra məbləğləri əhəmiyyətli şəkildə fərqlənmişdir.

Hesabat dövründə cəmi (ilkin təsdiq edilmiş) büdcə gəlirlərinin və xərclərinin müvafiq olaraq 64,9% və 37,1%-i ilin birinci yarısında icra olmuşdur. Naxçıvan Muxtar Respublika büdcəsinin gəlir və xərclərinin təhlili göstərir ki, hesabt dövrünün bütün aylarında əvvəlki illərdə olduğu kimi, xərclər gəlirlərdən artıq icra edilmişdir (Şəkil 2).

**Şəkil 2. 2024-cü ilin ilk yarımili üzrə Muxtar Respublika büdcəsinin gəlir, xərc və ayrılmış dotasiyanın aylar üzrə göstəriciləri, min manatla**




*Şəkil NMR Maliyyə Nazirliyi tərəfindən təqdim olunan məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Qeyd edək ki, Muxtar Respublika büdcəsinin gəlir və xərclərini tənzimləmək məqsədilə 2024-cü ilin hesabat dövrü ərzində Azərbaycan Respublikası dövlət büdcəsindən 150,1 mln. manat məbləğində dotasiya ayrılmışdır ki, bu da təsdiq edilmiş illik göstəricidən 193,2 mln. manat və ya 56,3% azdır.

Aparılmış təhlillər göstərir ki, gəlir və xərcləri tənzimləmək məqsədilə dövlət büdcəsindən ayrılmış vəsaitlər (150,1 mln. manat) də daxil olmaqla, Muxtar Respublika büdcəsinin hesabat dövrü üçün cəmi daxilolmalarının 262,5 mln. manat, cəmi xərclərinin isə 191,7 mln. manat olduğunu nəzərə aldıqda, ümumi gəlirlərin xərclərdən 70,8 mln. manat artıq olduğunu deyə bilərik. Dövlət büdcəsindən ayrılan dotasiyanının gəlir və xərcləri tənzimləmək məqsədilə ayrıldığını nəzərə alsaq, hesabat dövründə dövlət büdcəsindən bu məqsədlə ayrılmış vəsaitdə (gəlir və xərclərin tənzimlənmək üçün nəzərdə tutulan məbləğdən 70,8 mln. manat çox) bir qədər də qənaət imkanlarının olduğunu deyə bilərik.  Belə ki, hesabat dövrü üçün xərclərin 112,4 mln. manatı Muxtar Respublika büdcəsinin daxilolmaları hesabına formalaşdığı halda, gəlir və xərcləri tənzimləmək məqsədilə əlavə tələb olunan 79,3 mln. manat dotasiya əvəzinə 150,1 mln. manat və ya 70,8 mln. manat artıq olmaqla hesabat dövrü üçün dotasiya istənilmişdir. Bundan əlavə qeyd edilməlidir ki, iyun ayı üzrə vahid xəzinə hesabının Naxçıvan Muxtar Respublikasının büdcəsinin qalığı 87,4 mln. manat təşkil etmişdir ki, bu da 2023-cü ilin sonuna olan göstərici ilə müqayisədə 69,4 mln. manat çoxdur. *Qalığın il ərzində hərəkəti* və *gəlir+dotasiya-xərc* arasındakı fərq 1,4 mln. manat təşkil edir. Bu məbləğin isə büdcə təşkilatlarının büdcədənkənar hesabları üzrə vəsait qalıqlarında əks olunduğu qənaətinə gəlinir.

Əlavə olaraq qeyd edirik ki, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda vahid xəzinə hesabının Naxçıvan Muxtar Respublikası üzrə qalığı hesabına növbəti ilin xərclərin maliyyələşdirilməsi və ya qalıqdan digər istiqamətlərə yönəldilmə ilə bağlı hər hansı müddəa nəzərdə tutulmamışdır.

### 4.2.2. 2023-cü il ərzində Azərbaycan Respublikası dövlət büdcəsindən Sosial İqtisadi İnkişaf Proqramı çərçivəsində Naxçıvan Muxtar Respublikası üçün ayrılmış vəsaitlərin bir qismi 2024-cü ilin müvafiq dövründə də istifadəsiz saxlanılmış, depozit və tapşırıqlar hesabının müvafiq qalıqlarında isə ilin əvvəli ilə müqayisədə əhəmiyyətli azalma müşahidə edilmişdir.

Təqdim edilmiş məlumatlara əsasən, 2024-cü ilin hesabat dövrü ərzində 11 istiqamət üzrə 2748,0 min manat vəsaitin icrasına başlanılmamış, 6 istiqamət üzrə isə cari ilin müvafiq dövrü üçün xərc edilsə də, 490,9 min manat vəsait istifadəsiz saxlanılmışdır.

Eyni zamanda, məlumatlara əsasən, 6 ayın yekunu üzrə depozit və tapşırıqlar hesabı üzrə qalıqlarda əhəmiyyətli azalma izlənmiş, ilin əvvəli ilə müqayisədə bu hesabın qalıqları təxminən 50,0 mln. manat az olmaqla 9,2 mln. manat təşkil etmişdir. Azalmaya həm bəzi istiqamətlər üzrə xərclərin icrası, həm də bəzi qurumların (büdcə təşkilatı olmayan) müvafiq xəzinə hesabındakı qalıqlarından bank hesablarına köçürülməsi ilə bağlı olmuşdur. Təhlillər bu hesabın bəzi qurumlar üzrə qalıqlarının büdcə parametrlərinin tamlığına təsir etdiyi barədə qənaətə gəlməyə imkan verir.